# Güclü dövlətin fenomenal Lideri

*"Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq".*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti,***
***Silahlı Qüvvələrin Ali Baş Komandanı***

Azərbaycan sentyabrın 27-də başlamış əks-hücum əməliyyatlarını müvəffəqiyyətlə başa vurdu, Vətən müharibəsi bizim böyük zəfərimizlə başa çatdı. 44 günlük Vətən müharibəsinin başlanması və tarixi Zəfərlə yekunlaşması hər şeydən əvvəl Azərbaycan Respublikasının siyasi rəhbərliyinin və Azərbaycan xalqının tükənməz Vətən sevgisi və sıx birliyiilə əlaqədardır. Qələbəmizin əldə olunmasında mühüm amillərdən biri də tarixi şəhərimiz olan Şuşanın işğaldan azad edilməsi oldu. Noyabrın 8-də Şuşanın erməni işğalından azad edilməsi çox mühüm hadisədir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bu müjdəsi Azərbaycan xalqı tərəfindən böyük coşğu ilə qarşılandı. 28 il artıq müddətdə işğal altında olan mədəniyyətimizin beşiyi Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, həm də çox böyük mənəvi məna daşıyır. Bu gün işğaldan azad edilmiş torpaqlarımızda Azərbaycanın üçrəngli bayrağı dalğalanır. Şuşa diplomatik mərkəzə çevrilərək tədbirlərin keçirilməsi, sənədlərin imzalanması üçün ideal məkan kimi qəbul olunur. Hazırda Azərbaycanın hər bir bölgəsi inkişaf, tərəqqi dövrünü yaşayır. İşğaldan azad edilmiş ərazilərimizin qısa müddətdə Azərbaycanın dayanıqlı inkişafına töhfələr verməsi üçün mühüm addımlar atılır, bərpa və quruculuq işlərinin miqyası genişlənir.

Bir əsgərin döyüş meydanındakı qələbəsi yalnız qələbə əmri olduğunda deyil, məhz qələbəyə inam olduqda əldə edilir. Bizdə bu inamı, bu əqidəni cənab Prezident öz nümunəsi ilə, xalqımızla olan birliyi ilə yaratdı. Onun gücü xalqın gücüdür və müharibə zamanı o öz çıxışlarında xalqımızın səsini məharətlə dünyaya çatdırırdı. Bizim bu səsə, düşmənlərimizi güllə kimi sözləri ilə darmadağın edən Əliyevin dəmir məntiqinə ehtiyacımız var idi. Dövlət başçımızın apardığı uğurlu siyasət nəticəsində Azərbaycan beynəlxalq arenada yüksək nüfuza malikdir. Ölkəmizin siyasi rəhbərliyinin, ordusunun və xalqının, xüsusən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uzaqgörən siyasəti nəticəsində formalaşan gənclərin Vətən sevgisini və birliyini daha da möhkəmləndirdi və 44 günlük Vətən müharibəsi Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı. Bu gün işğaldan azad edilmiş ərazilərimizdən səslənən hər bir mesaj qalib Azərbaycanın gücünü, qüdrətini nümayiş etdirir. Bu mesajlar işğalçı Ermənistanın illərdir yaratdığı "məğlubedilməzlik" mifinin dağılılması deməkdir. 44 gündə Azərbaycan Ordusu yazdığı tarixlə işğalçı Ermənistana və ona havadarlıq edən dövlətlərə ədalət, hüquq, milli qürur dərsi keçdi.



Ulu Öndər Heydər Əliyevin bünövrəsini qoyduğu ordumuz cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə günü-gündən güclənərək müasirləşdi. Təbii ki, ordunun gücləndirilməsi üçün ölkənin iqtisadi gücü formalaşmalı idi. Ümummilli Liderin siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin təkmil islahatları nəticəsində Azərbaycan iqtisadi müstəqilliyinə nail oldu, dünyada öz sözünü deyən və haqq səsini müdafiə edə bilən ölkəyə çevrildi. 2020-ci il noyabrın 10-da qazanılan tarixi Qələbə həm də Prezident İlham Əliyevin dünya və xalqımız üçün siyasi və milli liderlik keyfiyyətlərinin tamamilə yeni zirvələrini aşkara çıxardı.

Bunun nəticəsi də Ermənistan üçün çox ağır oldu. İlham Əliyev qısa vaxt - 44 gün ərzində dəmir yumruğu ilə düşmənin başını əzib, belini qırdı. Yeni taktika və strategiya tətbiq edərək Ermənistan ordusunu məhv etdi, qorxaqlar və fərarilər yığnağına çevirdi. Onu da vurğulamaq yerinə düşər ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu müharibəyə aşkar və məxfi şəkildə bütün bacarıq və qabiliyyəti, istedad və xarizması ilə hazırlaşmışdı. Qətiyyətli, prinsipial Lider nəyi, nə vaxt və necə edəcəyini dəqiq müəyyənləşdirmişdi. Azərbaycan dövləti, xalqı və ordusu da məqsədə çatmaqdan ötrü bütün gücünü və imkanlarını ortaya qoydu, dərhal səfərbər olunaraq qüdrətli, nəhəng yumruğa çevrildi.

Xalqımızın təsəvvüründə liderlik fenomeni tariximizdə son əsrlərdə rast gəlmədiyimiz yeni nümunəsi, örnəyi ilə tamamlanaraq bütövləşdi. Müstəqillik illərimizdə ictimai şüurda liderlik örnəyi siyasi lider, milli lider, lider-şəxsiyyət amilləri ilə assosiasiya olunurdusa, Vətən müharibəsi Prezident İlham Əliyev şəxsiyyətinin dünya liderlik fenomenində ən nadir nəsib olan keyfiyyətlərini kəşf etdi. Bunlardan birincisi, hərbi lider, sərkərdə, fateh, ikincisi isə müasir dövrün ən mürəkkəb müharibə formalarından olan informasiya savaşının strateqi kimi keyfiyyətləri oldu. Torpaqlarımızı işğaldan azad edən, Azərbaycanı bütövləşdirən Prezidentimiz Lider şəxsiyyət etalonunu da bütün keyfiyyətlər üzrə tamamladı və bir simada - özünün liderlik timsalında birləşdirdi. Vətən müharibəsi Prezident İlham Əliyevin siyasi lider şəxsiyyətinin yeni, nadir keyfiyyətini - hərbi sərkərdəlik fenomenini da aşkara çıxardı.

Prezidentin çıxışları və mətbuat konfransları dünya siyasi ritorikasının qızıl fonduna daxil edilib. Təkcə ona görə yox ki, hər bir çıxış, hər bir ifadə, hər bir söz natiqlik sənətinin ən yaxşı nümunələrini özündə əks etdirirdi, həm də ona görə ki, onun dedikləri mütləq qaydada həyata keçirilir və yerinə yetirilirdi. Bütün dünyada müharibələri təhlil edən müasir dərsliklər bu gün ilk növbədə bizim təcrübəmizi öyrənir və hərbi əməliyyatların aparılması metodları ilə birlikdə Azərbaycan Prezidentinin hər bir nitqini, dünya ilə necə danışmaq lazım olduğunu, ölkənin milli maraqlarını əzəldən sənə nifrət edənlərdən necə müdafiə etmək lazım olduğunu öyrənirlər. Ancaq bu da hələ hamısı deyil. Onun verdiyi və qeyd-şərtsiz əməl olunan əmrləri ilə yanaşı, o öz düşüncə gücü və dəmir məntiqi sayəsində hadisələri öncədən görə bilirdi. Və hər kəs bilirdi ki, əgər Prezident nəyisə deyirsə bu mütləq baş verəcək. Əgər o qələbə qazanacağımızı deyirsə deməli qalib gələcəyik. Prezident İlham Əliyevin şəxsiyyətinə olan sonsuz inam şübhəsiz bizim böyük qələbəmizin əhəmiyyətli amillərindən biri idi.

Bu şanlı zəfər dünyada ən uğurlu və ədalətli qələbədir. Bu gün Ordumuz dünyanın ən güclü orduları sırasındadır və ölkəmiz öz ərazi bütövlüyünü tam şəkildə bərpa edib, bütün sərhədlərimizdə artıq Azərbaycan ordusu durur. Hərbi Prokurorluğun da xüsusi rolunu vurğulamaq lazımdır ki, ordu quruculuğuna mənfi təsir edən qanun pozuntularının və nöqsanların, cinayətkarlığı doğuran səbəb və şəraitin aradan qaldırılması üçün zəruri qabaqlayıcı tədbirlərin görülməsini təmin etmişdir. Həmçinin Silahlı Qüvvələrdə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində qarşısına qoyulmuş vəzifələri yerinə yetirməklə, orduda nizam-intizam qaydalarının möhkəmləndirilməsi, cinayət hadisələrinin və digər neqativ halların qarşısının alınması istiqamətində məqsədyönlü mübarizə tədbirləri həyata keçirmişdir.

***Cavid CÜMŞÜDOV,***
***Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru, ədliyyə polkovnik-leytenantı***